UOT 78 (075.8)

Əminə İlham
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000 Bakı şəh. Üzeyir Hacıbəyli küçəsi 68
E-mail: amina.ilhamqizi@gmail.com

MUSİQİ PEDAQOGİKASININ MUSİQİ BƏDİİ TƏRBİYƏSİNDƏ ROLU

Açar sözlər: *"Musiqi pedaqogikası", estetik tərbiyə, bədii tərbiyə, musiqi imkanları və vasitələri*

İlk öncə məqalədə "Musiqi pedaqogikasın"dan yazmağıma səbəb budur ki, bu fənnin məqsədi həm musiqi, həm də pedaqogika sahəsində lazım olan bilikləri formalaşdırır. Həmçinin bu fənn gənc nəslin musiqi bədii tərbiyəsində böyük rol oynayır. Beləliklə "Musiqi pedaqogikası" gənc nəslin musiqi tərbiyəsi haqqında elmdir.

Амина Ильхам

РОЛЬ МУЗЫКАЛЬНОЙ ПЕДАГОГИКИ В ХУДОЖЕСТВЕННОМ МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ

Ключевые слова: *«Музыкальная педагогика», эстетическое воспитание, художественное образование, музыкальные возможности и средства*

Цель предмета «Музыкальная педагогика» состоит в том, чтобы сформировать необходимые знания как в музыке, так и в педагогике. Музыкальная педагогика играет большую роль в художественном образовании молодого поколения. Таким образом, «Музыкальная педагогика» наука о музыкальном образовании молодого поколения.

Amina Ilham

THE ROLE OF MUSICAL PEDAGOGY IN THE ARTISTIC EDUCATION OF MUSIC

Key word: *"Music pedagogy", literature manner, estetic manner, musical possibilities and means*

At first the main reason why I have written about Music pedagogy

is that the aim of this subject to formalize of knowledge either musical or pedagogical area. Also this subject plays a big role at the music and literature manner of youth generation. At the and music pedagogy is science which is about the music manner of youths.

Təfəkkürün səs obrazı olaraq tarixin keşmə-keşli yollarında min illər ərzində insanların ideya etiqadının, əxlaqi və estetik ideyalarının formalaşmasında qüvvətli təsir gücünə malik - incəsənətin ən geniş yayılmış janrlarından olan musiqi estetik tərbiyənin qüvvətli təsir gücünə malik vasitələrindən biridir. Musiqi yalnız özünəməxsus xüsusi formada gerçəkliyi təcəssüm etdirir, cəmiyyətin və dövrün əsas ideyalarını, insanların münasibətindəki ən mühüm cəhətləri ifadə edir. Musiqi gerçəkliyi fəlsəfi cəhətdən ümumiləşdirilmiş halda mənalandırır. Hər bəstəkarın yaradıcılığında onun dövrünün, zamanəsinin hər hansı bir xüsusiyyəti öz ifadəsini tapır. Musiqi insanlara çox güclü təsir bağışlayır, çünki o yüksək emosional gücə malikdir, insanların hisslərinə hakim kəsilən incəsənətdir. Dünyanın ən məşhur şairləri, filosofları, bəstəkarları musiqiyə həmişə yüksək qiymət vermişlər: "Hər hansı bir xalqın müvəffəqiyyətli inkişafında üç faktor həlledici əhəmiyyətə malikdir. Bunlar **hərf, not və rəqəmdir**. **(V. Qüqo)**". "Yaradıcılıq həyatımı mən musiqisiz təsəvvür edə bilmərəm. Əgər mən uşaqlıqdan musiqini sevməysəydim, heç vaxt məşhur rəssam olmazdım. **(S. Konenkov)".** "Mənim məqsədim insanları musiqi vasitəsilə daha yaxşı etməkdir. **(G. Hendel")** "Musiqi insan hisslərinin riyaziyyatı, riyaziyyat isə insan təfəkkürünün musiqisidir. **(Silvester)**". "Musiqinin məqsədi - insanları yaxşılığa doğru aparmaqdır. **(C. Enesku)**". Musiqi vasitəsilə tərbiyə problemi həmişə pedaqoqların, psixoloqların, tədqiqatçıların, musiqi pedaqogikası sahəsində çalışan mütəxəssislərin tədqiqat obyekti olmuşdur. Əvvəllər ayrı-ayrı ölkələrdə musiqi vasitəsilə tərbiyə işinə dair tədqiqatların nəticəsi əlaqələndirilirdisə, sonralar bu məsələ beynəlxalq miqyasda öz həllini tapmış oldu. Dünyanın müxtəlif ölkələrində musiqi vasitəsilə tərbiyə sahəsində çalışan alimlər, pedaqoqlar və ümumiyyətlə musiqi pedaqogikası sahəsində çalışan mütəxəssislər, işləri, ideyaları, fikirləri, tədqiqatları öyrənmək, bunlar arasında qarşılıqlı əlaqə yaratmaq üçün ilk dəfə 1934-cü ildə musiqi vasitəsilə tərbiyə problemləri üzrə Beynəlxalq cəmiyyət təşkil etdilər.

Məlum olduğu kimi tərbiyə, təhsil və təlimin məzmun, forma və metodlarını öyrənən çoxsahəli pedaqogika elmi aşağıdakı elm sahələrinə bölünür:

1. Ümumi pedaqogika;
2. Yaş pedaqogikası;
3. Əlahiddə pedaqogika;
4. Müqayisəli pedaqogika;
5. Xüsusi metodikalar.
6. Pedaqogika tarixi.

Sonralar pedaqogikanın aha bir sıra yeni sahələri - peşə təhsili pedaqogikası, hərbi pedaqogika, islah-əmək pedaqogikası, mədəni-maarif pedaqogikası, eləcə də musiqi pedaqogikası yaranıb inkişaf etmişdir. Musiqi pedaqogikası üçün də pedaqogika elminin tərbiyə, təhsil və təlimə aid məqsədi, məzmunu, prinsipləri, qanunauyğunluqları əsas və başlıca anlayışlardır. Məlum olduğu kimi hər bir sahənin həm də özünə məxsus xarakter və spesifik cəhətləri vardır. Məhz bu mənada musiqi pedaqogikası pedaqogika elmi ilə yanaşı həm də musiqi tarixi, musiqi nəzəriyyəsi, ifaçılıq, psixologiya, estetika və s. ilə də əlaqədardır

Musiqi pedaqogikasının öyrəndiyi sahələrdən biri də tərbiyə problemləridir. Başqa sözlə desək musiqinin imkanlarından, təsir gücündən, bədii ifadə vasitələrindən istifadə edərək musiqi vasitəsilə uşaqların həm də tərbiyəsinə, daha dəqiq desək bədii tərbiyəsinə nail olmaqdır. Bu tərbiyə isə estetik tərbiyənin tərkib hissələrindən biri olan tərbiyədir.

Musiqi tərbiyəsi ifadəsi, musiqi vasitəsilə bədii tərbiyə ifadəsindən daha qısa və daha konkretdir. Bəlkə də elə buna görə əvvəllər şərti mənada işlənən ifadə sonralar daha geniş yayılmışdır. Bəzi müəlliflər bu ifadənin qeyri dəqiqliyini və bir o qədər də düzgün olmadığını başa düşdüklərinə görə musiqi tərbiyəsi əvəzinə musiqi-estetik tərbiyə ifadəsini də işlədirlər. Əslində bu ifadənin özü də bir o qədər də dəqiq deyildir. Axı estetik tərbiyənin sahələri daha genişdir. Bizcə musiqi-estetik tərbiyə əvəzinə həmin müəlliflər musiqi bədii tərbiyə söz birləşməsini işlətsəydilər bu daha dəqiq olardı. Maraqlıdır, öz əsərlərində musiqi tərbiyəsi ifadəsini tez-tez işlədən müəliflərin özləri də əslində musiqini vasitə kimi düşünürlər.

Musiqi tərbiyəsi ifadəsinin geniş yayılma səbəblərindən biri də çoxlarının ümumiyyətlə musiqi tərbiyyəsinin mahiyyətini, məqsəd və vəzifələrini lazımınca düzgün başa düşməmələridir. Məhz elə bunun nəticəsidir ki, hətta musiqi pedaqogikası sahəsində çalışan bir çoxları musiqi təlimi, musiqi təhsili, musiqi qabiliyyəti, musiqi bacarıq və vərdişləri və s. bu kimi musiqi terminlərinin daşıdığı mənanı lazımınca dərk etmirlər.

Musiqi vasitəsilə tərbiyə - musiqi təlimi və musiqi təhsili prosesində milli, eləcə də bəşəri musiqidən müxtəlif formalarda istifadə yolu ilə uşaqlara nəcib mənəvi sifətlər aşılamaq, onların musiqi haqqında lazımi məlumata, bilik, bacarıq və vərdişlərə yiyələnmələridir.

ƏDƏBİYYAT

1. Ağayev Ə.Ə. " Pedaqoji fikrimiz: dünənimiz , bu günümüz". Bakı: 2000
2. "Mədəniyyət dünyası" (elmi-nəzəri məcmuə). Bakı, 2004
3. O.Rəcəbov, İ.Miriyeva - "Musiqi və mənəvi tərbiyə". Bakı, 1995
4. https://az.m.wikipedia.org
5. www.musigi-dunya.az

6. J.Qədimova – Musiqi pedaqogikası: müasirlik və tarixilik - Bakı, 2012
7. S.Quliyev – Musiqi və onun tədrisi metodikası – Bakı

Məqalənin redaksiyaya daxil olma tarixi: 15.06.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.